# HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK TƏLİMİ

## *Akademik İsa Həbibbəylinin tədqiqatlarında*



*Salatın ƏHMƏDLİ,*
*dosent*

*(Əvvəli ötən saylarımızda)*

* * *

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin beynəlxalq əhəmiyyətinə toxunan alim, onu Heydər Əliyev siyasi kursunun "real və parlaq qələbəsi" adlandırır. "...Bu, müstəqil Azərbaycan dövlətinin taleyində xüsusi əhəmiyyət kəsb edən, ölkəmizin tarixində mühim yeri olan misilsiz nailiyyətdir. Bu nəhəng layihənin gerçəkləşdirilməsi bütün məntiqi ilə müstəqil dövlətimizin bir daha özünütəsdiqidir".

Türkiyənin Ceyhan limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən möhtəşəm tədbirləri, burada ulu öndərimizin adını daşıyan parkın açılışını "həm də azərbaycançılığın, Heydər Əliyev siyasi kursunun təntənəsi" bilir. "Ceyhan limanına çatdırılan Xəzər nefti müstəqil Azərbaycanda siyasətin və iqtisadiyyatın iri addımlarla, böyük sürətlə irəliyə doğru inkişaf etməsinin real və konkret göstəricilərindən biridir. Bakıdan - Ceyhana qədər keçilən çətin və şərəfli yolu müstəqil Azərbaycan dövlətinin siyasi iradəsinin məntiqi yekunu" bilir. Bu layihəni eyni zamanda Azərbaycan neft elminin, milli mühəndis-texniki ziyalılığın da nailiyyəti bilir.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin uğurla başa çatdırılması, bu nəhəng layihənin tamamlanması ümummilli liderimizin siyasi xəttini böyük bacarıqla, ardıcıllıqla, qətiyyətlə, yeni dünyəvi dəyərlərə uyğun şəkildə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin məqsədyönlü siyasətinin və səmərəli fəaliyyətinin sayəsində mümkün olduğunu bildirən alim Bakı-Tbilisi-Ceyhanı "Heydər Əliyev dühasının möhtəşəm proqramı, İlham Əliyev iqtidarının real əsəri" kimi ifadə edir: "Bu, ölkəmizin prezidentinin genişmiqyaslı, beynəlxalq əhəmiyyətə malik olan layihələri gerçəkləşdirmək əzmi və bacarığının konkret əməli ifadəsidir. Bu, müstəqil Azərbaycanda dövlət səviyyəsində müəyyənləşmiş iqtisadi siyasətin uğurlu bəhrəsidir. Nəhayət, Bakı-Tbilisi-Ceyhan boru xətti dövlət müstəqilliyimizin qarşıdan gələn 15 illiyinə layiqli və misilsiz hədiyyədir. Bakıdan Ceyhana axan ölkəmizin əsas sərvəti olan, vaxtilə görkəmli türk şairi Nazim Hikmətin Azərbaycan şərabına bənzətdiyi Xəzər neftidir. Ceyhandan Cahana ayaq açan isə beynəlxalq aləmdə mövqeyi daha da möhkəmlənmiş, şöhrəti artmış müstəqil Azərbaycandır".

* * *

Azərbaycanda dövlət müstəqilliyinin bünövrəsinin XX əsrin əsas idealarından biri olduğunu, böyük mütəfəkkirlərin müxtəlif formalarda ölkəmizin müstəqillik qazanması, milli dövlətçiliyin bərqərar olması yolunda mübarizəsi, "federasiya, konfederasiya, respublika və sair kimi dövlətçilik tipləri barədə" irəli sürdükləri mülahizələri önə çəkən İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin 1917-ci ildə yazdığı «Cümhuriyyət» məqaləsində söylədiyi müddəaları («Cümhuriyyət, yəni latınca «Respublika» elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır. Camaat dedikdə Vətənin sahibidir... Məmləkət müəyyən qanunlar gücü ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları, yəni vəkilləridir. Məmləkətin rəisinə «Prezident» deyilir. Prezidenti ya millət özü seçir, ya parlament, yəni millət vəkilləri seçir. Prezident məmləkəti idarə etməyə özünə köməkçi hesabında vəzirlər təyin edir... Cümhuriyyət idarəsinin bir zinəti də var ki, o da tamam azadlıqdır. ...əgər bizdə insanlıq hissi hələ ölməyibsə, ...o vədə gərək uca səs ilə cümhuriyyət qəhrəmanlarını alqışlayıb deyək: Yaşasın Cümhuriyyət».) yada salır. Bu mənada 28 may 1918-ci il tarixdə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin "təkcə bu demokratik dövlətin qurucularının deyil, bütövlükdə xalqımızın, milli ziyalılığın arzusunun ifadəsi" olduğu, Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli mövcudluğunun ən böyük nəticəsini (xalqın milli-tarixi yaddaşına müstəqillik düşüncəsinin əbədi, həmişəlik olaraq həkk etdirməsi-İ.H), 18 oktyabr 1991-ci ildə Azərbaycanda yenidən dövlət müstəqilliyinin bərqərar olması, milli-tarixi yaddaşın təzə epoxadakı oyanışı və ya müstəqil dövlətçiliyin bərpa edilməsi mənasında mühüm əhəmiyyətə malik böyük siyasi hadisə olması qeyd edilir: "Həmin gün qəbul edilmiş «Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı» milli düşüncədə yaşayan müstəqil dövlətçilik idealının bəyannaməsi idi. Bu tarixi Aktın bir böyük əhəmiyyəti də Azərbaycanı cəmi 23 ay yaşaya bilmiş Xalq Cümhuriyyətinin varisi elan etməklə respublika tipli dövlətçilik ənənəsinin qorunub saxlanılacağını elan etməsindən ibarətdir. Təəssüf ki, keçən əsrin doxsanıncı illərinin başlanğıcında hakimiyyətdə olan qüvvələrin, xüsusən, siyasi gedişlərində yalnız mərkəzə əsaslanan rəhbərlərin, təcrübəsiz, səriştəsiz və iddialı AXCP-Müsavat hakimiyyətinin bacarıqsızlığı və yanlış siyasəti ucbatından yenidən bərpa olunan müstəqil milli dövlətçilik real itirilmə, məhv olma təhlükəsi ilə1 üzləşməli olduğu, Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışı ilə yenicə yaranmış, lakin "böyük uçuruma yuvarlandırılmış" Azərbaycan Respublikasını sözün həqiqi mənasında dağılmaqdan xilas etdiyi, onun qətiyyətli və ardıcıl mübarizəsi nəticəsində Azərbaycan Respublikasının öz varlığını qoruyub saxlaya bildiyi açıqlanır: «Azərbaycanın dövlət müstəqilliyi əbədidir» bəyanatını irəli sürməklə qalmayaraq bu əbədiyyətin siyasi-ideoloji və hərbi-iqtisadi əsaslarını formalaşdıran Heydər Əliyev böyük xilaskarlıq missiyasını həyata keçirməyə nail olmuşdur. Bu mənada XX əsr boyu Cəlil Məmmədquluzadələrin arzu etdiyi, Məmmədəmin Rəsulzadələrin, Fətəlixan Xoyskilərin... axıradək qoruyub saxlaya bilmədikləri, Nəriman Nərimanovun ümidlərinin qırılması ilə nəticələnən Azərbaycan dövlətçiliyi böyük dövlət xadimi Heydər Əliyevin sayəsində həmişəlik bərpa olunmaq imkanı qazana bildi. Bütün bunlara görə Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin yaradıcısı və memarıdır".

Xaricdən gələn basqıları, mürəkkəb daxili çətinliklərin hamısını aradan qaldırmağa nail olan Heydər Əliyevin "müstəqil Azərbaycan dövlətinin xilası yollarındakı dönməz və qətiyyətli mübarizəsi"ni həqiqi qəhrəmanlıq nümunəsi bilir. "Ölkəmizdə milli dövlətçilik işinin möhkəm əsasları, etibarlı dayaqları"nı yaratmış, "Azərbaycanda müstəqil dövlət qurmaq cəbhəsinin böyük qəhrəmanı", görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da məqsədyönlü şəkildə gerçəkləşdirdiyini bildirən İsa Həbibbəyli sovet dövründə "çətin siyasi-ideoloji məhdudiyyətlər dövründə iqtisadi cəhətdən inkişaf etmiş, milli mədəniyyətini önə çıxaran Azərbaycan Respublikasını" formalaşdırmaqla gələcək dövlət müstəqilliyinin rüşeymlərini hazırladığını, Siyasi Büro üzvləri arasında nüfuz sahibi olan Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan Respublikasının sovet hakimiyyəti illərində də bir çox cəhətdən müstəqil ölkə təsiri bağışladığını söyləyir: "Nəinki Sovetlər İttifaqında, hətta yaxın-uzaq xaricdə də ciddi siyasi ideoloqla Heydər Əliyev haqqında mülahizələrini bildirərkən onun müstəqil dövlət idarəçiliyi qabiliyyətinə malik olduğuna etiraf etməli olmuşdular. Hətta o zaman belə bir fikir də yayılmışdı ki, Brejnev və Andropov hakimiyyətinə Heydər Əliyevin əhəmiyyətli dərəcədə təsiri vardır. Heydər Əliyev Sovet İttifaqı məkanında qazandığı böyük nüfuzdan Azərbaycanın xeyrinə istifadə etməyi bacarmışdır. Beləliklə, həmin illər nəinki ölkə iqtisadi-mədəni cəhətdən sürətlə inkişaf etmiş, siyasi-ideoloji baxımdan da milli zəmində hazırlıq dövrü yaşamışdır. Azərbaycanın az sonra siyasi proseslərin önünə çıxmış milli ziyalılığının bütöv bir nəsli Heydər Əliyev epoxasında yetişib formalaşan qüvvələr idilər". Akademik Ziya Bünyadov, Xalq şairi Bəxtiyar Vahabzadə, Elmlər Akademiyasının Prezidenti Fəraməz Maqsudov, böyük vətəndaş alim Abbas Zamanov, istiqlal carçıları Xəlil Rza Ulutürk, Məmməd Araz, Xudu Məmmədov və onlarla başqalarının Heydər Əliyev dövründə qorunduğunu, fəxri ad, yüksək elmi rütbə qazanıb ictimai həyatda möhkəmlənmiş görkəmli şəxsiyyətlər kimi tanındıqlarını bildirən alim Sovet dövründə "Azərbaycan dilini dövlət dili səviyyəsində Konstitusiyada rəsmiləşdirməklə, ədəbiyyatda və incəsənətdə azərbaycançılıq ideyasına geniş meydan açmaqla, milli ziyalılar nəslini formalaşdırmaqla... Heydər Əliyev Azərbaycanın gələcək dövlət müstəqilliyi düşüncəsini formalaşdırmışdır", - deyir.

Azərbaycan Respublikasının müstəqil dövlətçilik taleyində görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünün də xüsusi yer tutduğunu, Naxçıvan dövrü müstəqilliyimizin tarixi müqəddəratının həll edilməsində əhəmiyyətli dərəcədə rol oynadığını, 1990-1993-cü illərdə həyata keçirilən siyasi-ideoloji xarakterli böyük tədbirlərin "müstəqil dövlətçiliyimizin möhkəm və etibarlı bünövrəsinə" çevrildiyini bildirən alim Heydər Əliyevin bu dövrdəki fəaliyyətinin istiqamətlərini araşdırır:

"1. Naxçıvan Muxtar Respublikasının xilas edilməsi, qorunub saxlanılması istiqamətində həyata keçirilən tədbirlər;

2. Naxçıvandan başlanan ümummilli Azərbaycan miqyaslı hərəkat;

3. Dünya azərbaycanlılarını birləşdirmək səyləri.

Bu istiqamətlərin hər biri üzrə aparılan mübarizə, əldə edilən nəticələr, ümumiyyətlə, Azərbaycanın, dövlət müstəqilliyinin qorunub mühafizə edilməsi, möhkəmləndirilməsi baxımından böyük əhəmiyyətə malik idi".

Siyasi fəaliyyətinə Naxçıvan Muxtar Respublikasından başlayan Heydər Əliyevin 21 yanvar 1990-cı il tarixində "çətin şəraitdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək ictimaiyyətin qarşısında böyük cəsarətlə çıxış etməsini, 20 yanvar faciəsinin günahkarlarını və səbəbkarlarını kəskin tənqid etməsini ölkəmizdə, həm də Naxçıvanda da böyük ümidlə, mübarizlik əhvali-ruhiyyəsi ilə qarşılandığını yazır: "Əslində konseptual xarakterli bu çıxış müstəqillik uğrunda ümumxalq mübarizəsinə çağırışın Moskvadan ifadə edilən əks-sədası idi. Bu dərin məzmunlu çıxışı Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəsinin Heydər Əliyev bəyannaməsi adlandırmaq olar. O vaxta qədər də böyük mitinqlərdə dəfələrlə adı çəkilən, portretləri qaldırılan Heydər Əliyevin adı Moskvadakı daimi nümayəndəlikdəki çıxışından sonra Azərbaycandakı müstəqillik hərəkatının siyasi lideri səviyyəsində açıq etiraf olunmağa başladı. Doğrudur, məsələnin bu cəhəti Moskvada Kremlin nəzarəti altında yaşayan Heydər Əliyev üçün ciddi çətinliklər yaratmışdı. Ancaq xalqına və ölkəsinə ürəkdən bağlı olan, onun azadlığı və müstəqilliyi uğrunda mübarizəsindən kənarda özünü təsəvvür edə bilməyən Heydər Əliyevin ölkəsində baş vermiş qanlı faciələrə laqeyd qalması qeyri-mümkün idi. Ona görə də 21 yanvar 1990-cı il tarixində Moskvadan cəsarətli bəyanatla səslənməsi müstəqillik uğrunda mübarizənin dönməzliyini ifadə edən dönüş nöqtəsi idi". Bəyanatda ifadələrin sərt və ötkəmliyi («Azərbaycanda baş verən hadisələrə gəlincə mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Hesab edirəm ki, Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin (SSRİ-nin -İ.H.) ali partiya rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsəydi gərginlik indiki həddə çatmaz, ...1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı...

Bütün vəziyyətlərdə... məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir... Nəticəsi isə göz qabağındadır. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar sadəcə olaraq Respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif tərəfləri ilə əlaqələri zəiflətmişlər... Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdırlar».) xalqımızın mübarizə əzmini qüvvətləndirmiş olduğunu söyləyir.

*(Davamı 9-cu səhifədə)*

# HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK TƏLİMİ

## *Akademik İsa Həbibbəylinin tədqiqatlarında*

*(Əvvəli 8-ci səhifədə)*

Azərbaycan Respublikasının rəhbərliyinin Heydər Əliyev kimi təcrübəli və nüfuzlu, böyük ümumxalq ehtiramı qazanmış görkəmli dövlət xadiminin imkanlarını məqsədyönlü şəkildə yaranmış çətin vəziyyəti aradan qaldırmaq üçün dəyərləndirmək əvəzinə ona qarşı haqsız-ədalətsiz mövqe tutmaqda davam etdiyindən təəssüflə bəhs edən alim Naxçıvanda hazırlanan dövlət çevrilişi cəhdlərini, iqtisadi yardımın maneələrlə göndərilməsini, regionda sabitliyi pozmaq meyllərini pisləyir. Bütün çətinliklərə sinə gərən Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında apardığı məqsədyönlü fəaliyyətinin Respublika səviyyəsində əhəmiyyətini qeyd edir.

25 avqust 1990-cı il tarixində Naxçıvan Muxtar Respublikası seçicilərinin Babək rayonunun 304 saylı Nehrəm dairəsindən Azərbaycan SSR xalq deputatlığına və 2 saylı Mirzə Fətəli Axundov dairəsindən Naxçıvan MSSR xalq deputatlığına namizəd seçilməsi, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının xilası və inkişafı yollarında ciddi və tarixi əhəmiyyətə malik olan addımlar atmaqla müstəqilliyin qazanılmasına və möhkəmləndirilməsinə çalışması, bu sahədəki uğurlu fəaliyyəti (SSRİ Nazirlər Soveti partiya təşkilatına müraciət edərək Kommunist Partiyasının sıralarından çıxır, Naxçıvan Muxtar Respublikasında partiya və komsomol təşkilatların ləğv etdirərək bu təşkilatların əmlakını müsadirə edib təzə yaradılmış qurumların istifadəsinə verir), xalqın və Ali Məclisin deputatlarının təkidli tələbi ilə 03 sentyabr 1991-ci il tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi, bunun Azərbaycanda dövlət hakimiyyətinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilmiş ümumrespublika əhəmiyyətli tarixi hadisə olduğu, Sovet ordusu hissələrinin dinc yolla Naxçıvan MR ərazisindən çıxarılması, Dövlət Müdafiə Komitəsinin yaradılması (07 sentyabr 1991-ci il), Naxçıvana ağır yüklü təyyarələrin gələ bilməsi üçün yeni aeroportun işə salınması (01 mart 1992-ci il), Naxçıvan MR Dövlət Gömrük Komitəsinin təsis edilməsi (24 mart 1992-ci il), Ankarada «Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Əməkdaşlıq Protokolu»nun imzalanması (24 mart 1992-ci il), Ali Məclisdə «Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında» qərarın qəbul olunması (06 aprel 1992-ci il) - bütün bunların Naxçıvanda "dövlətçilik prinsiplərinin möhkəmləndirilməsini, inkişafın yeni meyllərinin təmin edilməsini" şərtləndirdiyi, Sədərək ərazisində Araz çayı üzərindən keçməklə salınmış və Naxçıvan Muxtar Respublikasını Türkiyə Cümhuriyyəti ilə əlaqələndirən «Ümid» körpüsünün istifadəyə verilməsi, İran İslam Respublikasına səfərlər və bu ölkələrin rəhbərləri ilə keçirdiyi görüşlər, apardığı danışıqlar konkret olaraq Naxçıvanın taleyi ilə bağlı olsa da, siyasi mənada yenicə müstəqillik qazanmış gənc ölkənin beynəlxalq münasibətlərinin əlamətdar hadisələri olduğu, keçirilən mədəni tədbirlər (Hüseyn Cavidin anadan olmasının 110 illiyi, Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyi) onun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanın üçrəngli bayrağının dövlət rəmzlərindən biri kimi qəbul edilməsi, «Naxçıvan Muxtar Sovet Sosialist Respublikası» ifadəsindən «Sovet Sosialist» sözlərinin çıxarılması, «Ali Sovetin» adının dəyişdirilərək «Ali Məclis» adlandırılması kimi mövcud sovet dövlətinin prinsipləri ilə uzlaşmayan qərarların qəbul edilməsi, Naxçıvanda ikən 16 dekabr 1991-ci ildə keçirilmiş iclasda hər ilin 31 dekabrı "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qəbul edilməsi haqqında imzaladığı qərarı açıqlayan alim "1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti kimi ölkəmizdə sadəcə elan olunmuş böyük təhlükələrlə üz-üzə qalan müstəqil dövlətçiliyi möhkəmləndirmiş, ona əbədi həyat vəsiqəsi bəxş etmişdir. Müstəqil Azərbaycan görkəmli dövlət xadimi Heydər Əliyevin şah əsəridir", - deyir.

Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasətin onun tərəfindən əsası qoyulduğunu, dövlət əhəmiyyətli, beynəlxalq miqyaslı layihələrin İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini yazır: "Bakı-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri böyük dövlət xadiminin başladığı, ölkəmizin Prezidentinin uğurla başa çatdırdığı nəhəng layihələrdir. Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu xətti Heydər Əliyevin dövlətçilik ənənəsinə möhtərəm Prezidentimizin möhtəşəm əlavəsidir. Prezident İlham Əliyevin analitik təfəkkürdən, çoxaspektli siyasi-elmi yanaşmalardan doğan düşünülmüş qərarları və təhlilləri, təmkinli və məqsədyönlü islahatçılıq düşüncəsi, geniş miqyaslı böyük quruculuq proqramlarını həyata keçirmək istiqamətindəki ardıcıl fəaliyyəti, cəmiyyət həyatının bütün sahələrini əhatə edən müasirləşdirmə, sosial rifahın və xalqla ünsiyyətin ön mövqeyə çəkilməsi əsasında qurulmuş dövlət idarəçiliyi sistemi Azərbaycan Respublikasının möhtəşəm uğurlarının əsas hərəkətverici qüvvəsini təşkil edir. Azərbaycan Respublikasının paytaxtında və regionlarında gedən sürətli yeniləşmə və tərəqqi ölkəmizdəki hərtərəfli, dinamik inkişafın parlaq göstəricisidir". Eyni zamanda Heydər Əliyevin vaxtilə işğaldan xilas etdiyi Naxçıvan Muxtar Respublikasının da bu "etibarlı siyasi bünövrə üzərində inkişafdan intibaha doğru" böyük yol keçdiyini yazır.

* * *

"Tarixi gedişatın dönüş məqamı və müasir dövr" adlı məqaləsində görkəmli dövlət xadimi Heydər Əliyevin 03 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi, Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan taleyüklü məsələlərin həllində qarşıya çıxan çətinlikləri, ictimai-siyasi gərginlikləri-tarixin səhifələrində əksini tapan həqiqətləri önə çəkən İsa Həbibbəyli onun Naxçıvana dönüşünü, böyük gərginliklər içərisində xalq, dövlət naminə çətinliklərə sinə gərməsini diqqətə çəkir.

Dövlətçilik sahəsində böyük təcrübəsi olan Heydər Əliyevin XX əsrin doxsanıncı illərində yenidən hakimiyyətə, böyük siyasətə qayıdışını, həmin mürəkkəb dövrdə "Azərbaycan xalqının taleyi ilə bağlı olan tarixi hadisə kimi mühim" əhəmiyyət kəsb etdiyini, nə kommunist rəhbərlərin arasında, nə də cəbhəçi bəylərin sıralarında yeni tarixi şəraitdə ölkəyə rəhbərlik edə biləcək, Sovetlər İttifaqının dağılması ilə əlaqədar xalqı düşdüyü ağır vəziyyətdən çıxaracaq, ölkəni irəli apara biləcək əhəmiyyətli siyasi fiqur" görünmədiyini, hakimiyyət böhranının ölkəni zəiflətdiyini, xalqda ölkənin gələcəyinə böyük ümidsizlik yarandığını, Azərbaycanın parçalanmaq təhlükəsi ilə üz-üzə durduğunu, gözlənilən vətəndaş müharibəsi təhlükəsini, Naxçıvan Muxtar Respublikasının bütün əhalisinin Ali Məclisin Sədri vəzifəsinə görkəmli dövlət xadimi, böyük siyasətçi, xalqının sədaqətli rəhbəri Heydər Əliyevin seçilməsini qətiyyətlə tələb etdiyini, Muxtar Respublika Ali Məclisinin üzvü kimi ölkədə, o cümlədən, regionda gedən ictimai-siyasi proseslərdə "öz sözünü deyən, cəmiyyət həyatının demokratikləşdirilməsinə ciddi təsir göstərən, xüsusən, özünü bütövlükdə dövlət müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş, Naxçıvanın ərazi bütövlüyünün qorunub saxlanılması üçün xalqın birliyinə nail olmuş" Heydər Əliyevin heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını bildirdiyini yazır: "Naxçıvan MR Ali Məclisinin 03 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da o, dörd dəfə çıxış edərək namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etməklə yanaşı, böyük təkidlə bu məsələnin səsə qoyulmamasını xahiş etmişdir. Əliyevşünaslıqda bu məsələ barədə dəfələrlə yazılmasına baxmayaraq, görkəmli dövlət xadiminin həmin iclasda namizədliyinin səsə qoyulmaması üçün etdiyi çıxışların mətni mətbuatda öz əksini tapmamışdır. «Şərq qapısı» qəzetinin 04 sentyabr 1991-ci il tarixli sayında getmiş Naxçıvan MR Ali Məclisinin Sessiyası barədəki rəsmi məlumatdakı Heydər Əliyevin dörd dəfə çıxış etməsinə dair iki cümlədən ibarət informasiya sonrakı dövrün elmi-publisist materiallarında olduğu kimi təkrar edilmişdir".

On səkkiz il sonra, 2009-cu ildə ANS telekanalı «Görünməmiş Əliyev» adlı sənədli filmdə Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünə aid bir sıra naməlum materialları, o cümlədən Ulu öndərin 03 sentyabr 1991-ci il tarixində Naxçıvan MR Ali Məclisinin sessiyasındakı çıxışlarının videolentini ictimaiyyətə təqdim etdiyini, ilk dəfə səsləndirilən həmin tarixi əhəmiyyətə malik çıxışların "Heydər Əliyev dühasını daha dərindən dərk etmək, bu görkəmli şəxsiyyətin böyüklüyünün miqyasını bütün aydınlığı ilə dərk etmək üçün mühim siyasi əhəmiyyətə" malik olduğunu bildirən İsa Həbibbəyli Oqtay Daşoğuzun şəxsi videokamerası ilə lentə alınmış həmin məqamları "nadir tarixi material" kimi yüksək qiymətləndirir: "Bu qiymətli videolent Heydər Əliyevin tərcümeyi-halını və siyasi baxışlarının bir çox məqamlarını yenidən öyrənib dəyərləndirməyə imkan verir. Əvvəla, həmin nadir videolent bir daha təsdiq edir ki, Heydər Əliyev Kremlin təzyiqləri və təqiblərindən qurtararaq Azərbaycana gələrkən, həqiqətən də hakimiyyətə qayıtmaq məqsədində olmamışdır. Ümummilli lider Heydər Əliyev çoxsaylı çıxışlarında bu barədə dönə-dönə rəsmi açıqlamalar versə də, mövcud iqtidarlar buna inamsız yanaşma nümayiş etdirmişlər".



Buna görə də Heydər Əliyev Moskvada olduğu kimi, bir müddət öz ölkəsində də müəyyən dairələrin təzyiqləri və təqibləri ilə qarşılaşdığını, 03 sentyabr 1991-ci il tarixli çıxışın videolentinin üzə çıxmasının "Heydər Əliyevin hakimiyyətə gəlmək üçün Azərbaycana qayıtdığını düşünən qüvvələr" in böyük səhvə yol verdiyini sübut etdiyini bildirir. Heydər Əliyevin bu məsələyə aydınlıq gətirən çıxışlarından birindəki sözlərini («Mən hələ keçən il (yəni 1990-cı ildə - İ.H.) Moskvadan Azərbaycana gələrkən jurnalistlərə verdiyim müsahibələrdə və görüşlərdə, bu ilin əvvəlində Azərbaycan Ali Sovetinin Sessiyasında çıxış edərkən və nəhayət, son sessiyada bildirmişdim ki, Azərbaycana hakimiyyətə qayıtmaq üçün gəlməmişəm. Mən ancaq Azərbaycanın bu ağır dövründə, çətin vaxtında xalqıma kömək etmək, xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, bəs siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, mən xalqımın hər bir tapşırığını yerinə yetirməyə hazıram.») yada salmaqla onun "həyatının yenidən siyasi hakimiyyətə qayıtmaqla bağlı məqamlarını" açıq-aydın şəkildə nəzərə çarpdırdığını yazır.

İsa Həbibbəyli fikirlərinin tam doğruluğunun isbatı üçün «ANS» televiziyasının hazırladığı, cəmi bir-iki dəfə nümayiş etdirdiyi «Görünməmiş Əliyev» adlı çox dəyərli filmdə istifadə olunmuş video materialdan özünün dediyi kimi "sətirbəsətir" köçürdüyü çıxışların mətnini olduğu kimi oxuculara və geniş elmi ictimaiyyətin diqqətinə təqdim etməyi əhəmiyyətli bilir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin 03 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasında Ali Məclisin Sədri vəzifəsinə namizədliyi irəli sürüldükdən sonra etdiyi aşağıdakı çıxışları ilk dəfə İsa Həbibbəyli tərəfindən çap edilmişdir:

**BİRİNCİ ÇIXIŞ:**

«Heç bir hakimiyyətə mən gəlmək istəmirəm. Blok təklif eliyib ki, Qafar Məmmədov seçilsin. Mən də təklif edirəm ki, o seçilsin».

**İKİNCİ ÇIXIŞ:**

«Mən öz prinsiplərimə sadiq qalıram. Mən heç bir vəzifə daşımaq istəmirəm. Ona görə xahiş edirəm mənim namizədliyimi müzakirəyə qoymayasınız. Demokratik blokdan hazırlanmış namizəd vardır. Qafar müəllim... Mən o namizədi, Qafar mü əllimin namizədliyini müdafiə edirəm».

*(Davamı var)*